# Bakıda Orta dəhliz ölkələrinin vahid assosiasiyasının yaradılması müzakirə olunub

**Sentyabrın 19-20-də Bakıda "Avrasiya Nəqliyyat Marşrutu" (ANM) Beynəlxalq Assosiasiyasının qurulmasına dair dəmiryol administrasiyaları rəhbərlərinin məşvərət toplantısı keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Tacikistan, Çin və Avstriya dəmir yolu administrasiyalarının rəhbər heyətləri və nümayəndələrinin iştirak etdiyi tədbirdə ANM Beynəlxalq Assosiasiyasının təsis edilməsinə dair sənədlər, təşkilatın strukturu, işçi qrupların təşkili və digər mühüm məsələlər müzakirə edilib, bu marşrut üzrə rəqəmsallaşma, kommersiya məsələləri, marketinq və kommunikasiya, logistika xidmətləri, normativ-hüquqi aktlar və infrastruktur mövzuları ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov bildirib ki, qlobal logistika bazarlarının dinamikası dəyişir və Çindən Avropaya və əks istiqamətə yük axınlarında artımın olduğu müşahidə edilir və yaxın illərdə daha da artacağı proqnozlaşdırılır. Bu da yeni infrastrukturlara ehtiyac yaradır, daşınma yollarının şaxələndirilməsini tələb edir.

"Xəzərin Şərq tərəfində Orta dəhlizin daha bir qolu formalaşır. Marşrut Çin, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçərək dəmir, avtomobil və dəniz yollarını və yol infrastrukturu komponentlərini əhatə edir. Bu multimodal marşrutun cəlbediciliyinin və rəqabət qabiliyyətinin artırılması, marşrut boyu koordinasiyanın və ümumilikdə marşrutun inkişafının səmərəli təşkili məqsədilə kollegial orqanın - assosiasiyanın təsis edilməsi ehtiyacı yaranıb", - deyə R.Rüstəmov qeyd edib.

ADY sədri bildirib ki, Xəzərin Qərb tərəfində BTQ xətti ilə yanaşı, Orta dəhlizin daha bir qolu olaraq Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin yaradılması üzrə işlər görülür, paralel olaraq Orta dəhlizlə Şimal-Cənub dəhlizinin əlaqələndirilməsi nəticəsində Azərbaycanın həm özü, həm də tərəfdaşları üçün tranzit imkanlarını genişləndirəcəyi gözlənilir: "Xəzərin Şərq tərəfinə gəldikdə isə Çinin Qaşqar əyalətindən avtomobil yolu vasitəsilə Qırğızıstandan keçməklə Özbəkistanın Əndican şəhərində dəmir yoluna qoşulmaqla yüklər daşınır ki, bu yaxınlarda Çin, Qırğızıstan və Özbəkistan arasında bu hissədə dəmir yolu xəttinin tikilməsilə bağlı razılıq əldə edilib və işlərin yaxın illərdə yekunlaşacağı planlaşdırılır. Bu yeni dəmir yolu xətti regionda yerləşən digər ölkələr, Tacikistan, Türkmənistan, Əfqanıstan və Pakistan üçün də yeni imkanlar açacaq. Burada Orta dəhliz ilə Trans-əfqan dəhlizi arasında əlaqənin yaradılması kimi potensial imkanlar da vardır".

ADY sədri çıxışında qeyd edib ki, qarşıya qoyulmuş hədəflərə çatmaq üçün strukturlu iş aparılmalı, dəhliz konsepsiyası inkişaf etdirilməli, tarif siyasəti formalaşdırılmalı, əməliyyatların effektivliyinin artırılması, daha sürətli və təhlükəsiz daşımalar üçün Orta dəhliz üzrə rəqəmsal həllərin yeni marşrutda tətbiqi imkanları öyrənilməli və tətbiq edilməlidir.

Tədbirdə "Özbəkistan Dəmir Yolları" SC-nin İdarə Heyətinin sədri Zufar Narzullayev dəstəkləyərək bildirib ki, Avropa ölkələrinin Mərkəzi Asiya bazarlarına, xüsusilə Özbəkistan bazarına artan marağı müşahidə olunur. Özbəkistan da Avrasiya Nəqliyyat Marşrutu üzrə yükdaşıma əməliyyatlarına maraq göstərir.

Sonra tədbirdə çıxış edən Türkiyə Dövlət Dəmir Yollarının "TCDD Taşımacılık" şirkətinin baş direktoru və İdarə Heyətinin sədri Ufuk Yalçın Avrasiya Nəqliyyat Marşrutu üzrə yükdaşımaların böyük potensialı olduğunu qeyd edib. U.Yalçın əlavə edib ki, modernləşdirilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti də Orta dəhliz üzrə yükdaşımaların artırılmasına böyük təkan verəcək.

Çin Dəmir Yolu Konteyner Daşımaları Korporasiyasının (CRCT) prezidenti Yanq Bin isə ölkəsinin Orta dəhlizlə yükdaşımaların artmasında maraqlı olduğunu bildirib və qeyd edib ki, CRTC-nin "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsinə qoşulması bu dəhlizlə yük həcmlərinin artmasına töhfə verəcək.

Daha sonra tədbirdə çıxış edən "Tacikistan Dəmir Yolları" Dövlət Unitar Müəssisəsinin Yol rəisinin birinci müavini Sorbon Qulaxmadov və "Qırğızıstan Dəmir Yolları" Milli Şirkəti Dövlət Müəssisəsinin baş direktorunun müavini Dastan Usubakunov da ölkələrinin Orta dəhlizlə yükdaşımalara maraq göstərdiyini bildiriblər. Qeyd olunub ki, bu il Özbəkistan-Qırğızıstan-Çin yeni dəmir yolunun inşası razılaşdırılıb və bu layihənin icrası ANM-in rolunu bir qədər də artıracaq. Eyni zamanda Tacikistan-Çin avtomobil yolu ilə çatdırılan yüklər Tacikistandan dəmir yolu ilə Avrasiya Nəqliyyat Marşrutu üzrə qərb istiqamətində daşına bilər.

Məşvərət Toplantısına onlayn qoşulan "Türkmənistan Dəmir Yolları" Agentliyinin sədr müavini Bekmurat İşanquliyev Orta dəhlizin inkişafı və xüsusilə Mərkəzi Asiya dövlətlərinin Avropaya çıxışı istiqamətində səsləndirilən təşəbbüsləri dəstəklədiklərini bildirib.

Avropa İttifaqının yük daşımaları üzrə ikinci ən böyük şirkəti olan "Rail Cargo"nun daxil olduğu Avstriya Federal Dəmir Yollarının Avrasiya - Mərkəzi Asiya üzrə əlaqələr rəhbəri Enikö Györfi isə vurğulayıb ki, Avstriyanın nəqliyyat-logistika şirkətləri "Şərq-Qərb" dəhlizi üzrə yükdaşımalarda, o cümlədən BTQ ilə yüklərin nəqlində maraqlıdır. Bu, Orta dəhliz üzrə yüklərin həm də Avropadan Çinə daşınmasında artıma gətirib çıxaracaq. Artıq Avstriya və Azərbaycan dəmiryol administrasiyaları arasında bu istiqamətdə səmərəli əməkdaşlığa başlanılıb.

Çıxışlardan sonra assosiasiyanın təsis protokolu və nizamnaməsi müzakirə edilib. Daha sonra ADY tərəfindən "Diaqnostik hesabat: çətinliklər və manelər", "Marşrutun rəqəmsallaşdırılması" və "Beynəlxalq marşrut və dayanıqlı inkişaf: yeni üfüqlər" mövzusunda təqdimatlar edilib.

Qeyd edək ki, "Azərbaycan Dəmir Yolları" QSC artıq Orta dəhlizin inkişafı üçün "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TBNM) Beynəlxalq Assosiasiyası çərçivəsində islahatlarda fəal iştirak edir. İslahatlar nəticəsində Çindən Qazaxıstan, Azərbaycan və Gürcüstan vasitəsilə yük daşımalarının səmərəli təşkili üçün komissiyalar və işçi qrupları yaradılıb. TBNM çərçivəsində Azərbaycanın Gürcüstan və Türkiyə ilə uğurlu əməkdaşlığı davam edir. Yeni "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının məqsədi isə Orta dəhlizin passiv olan cənub qanadında yerləşən ölkələrin aktiv fəaliyyətə cəlb edilməsi ilə daha da genişləndirilməsidir.

Azərbaycan. - 2024.- 21 sentyabr (№206).- S.11.